


# MALİYYƏ YUMORU

Növbəti böhrandan sonra iki bank müdiri görüşürlər. Biri o birisindən soruşur:
- İşlərin necədi, gecəni neçə yatırsan?
- Körpə kimi!
- Doğrudan, necə?
- Bir saatdan bir ayılıram ağlayıram, ağlayıram...

Böhran vaxtı bankomata yaxınlaşdım, məndən 20 manat borc istədi.

- Ay oğlan, bu çox məsləhətli saatdır. Alın peşman olmazsınız. İsveç saatlarının dəqiq surətidir.
- Alıram. Buyurun bu da Amerika dollarının dəqiq surəti.

- Mən də atam kimi aya 10 000 manat qazanmaq arzusundayam.
- Məyər sənin atan aya 10 000 manat qazanır?
- Yox, atam da bu arzu ilə yaşayır.

Bir broker digərinə:
2x2 neçə eləyər?
Biz satırıq yoxsa alırıq?

İki iş adamı şəriklərinin məzarını ziyarət etmək məqsədi ilə qəbirsanlığa gəlirlər. Nə qədər çalışsalar da qəbri tapa bilmirlər.
Uzun axtarışdan sonra iş adamlarından biri qışqırır.
- Bildim. Ola bilsin ki, o, qəbrini həyat yoldaşının adına yazıb.

Ailə dəniz kənarında dincəlir:
- Ana, olar gedim çimim?



- Yox, olmaz. Böyük dalğa var
- Niyə e...? Bax, atam çimir axı?
- Ona olar. Ölsə sığortadan 100 000 dollar alacam.

Sığortalanan agentdən soruşur:
- Əgər evimi 200 000 dəyərində sığortalasam, sabahısı gün isə o yansa, mən nə qədər alacam?
- Doqquz il.

- Allo! Sığorta şirkətidir?
- Bəli.
- Mənim yoldaşım yanğından sığortalanmışdır. Onun pulunu ala bilərəm?
- Yoldaşınız yanğın səbəbindən vəfat edib?
- Xeyir, ürək çatışmamazlığından. Sadəcə olaraq cəsədini yandırmışam.

Şənlik mərasımində pəhlivan bir əli ilə limon şirəsini sıxıb, ətrafda toplaşanlardan soruşur:
- Kimsə mən etdiyimi təkrar edə bilər?
- Bir nəfər gəlib həmin limondan iki stəkan şirə çıxarır?
- Sən kimsən? Haradan gəlmisən?
- Vergi müfəttişliyindən.

Oğul biznesmen atasından soruşur:
Ata bizdə oxumağa fantastika ya mistika var?
Əlbəttə, buyur oxu - mühasibimin vergi hesabatı

İbtidai icma quruluşu dövründə fyuçers müqavilələrin məzmunu:
- İki balta bir öldürüləcək ayı dərisinə dəyişdirilir.

- Axırıncı dəfə soruşuram mənim borcumu nə vaxt qaytaracaqsınız?
- Çox şadam ki, bu axmaq sualı mənə bir daha verməyəcəksiniz.

Böhran nəticəsində yaranan kəlam: “Kim səhər tezdən oyanır, onu hələ ixtisara salmayıblar”






Əmək haqqı 500 manat olsa – normal, 1 000 – yaxşı, 5 000 - əla, 20 000 – artıq pis deyil.

- Mənim nişanlım mobil telefon kimidir:
- Necə? Balaca, müasir və əvəzolunmazdır?
- Yox, pul qurtaranda mənimlə danışmır.

İmtahanda:
- İlk vergi müfəttişinin adını deyin?
- Adəmin qabırğasını əlindən alan Həvva

Allah iqtisadçıları niyə yaradıb?
Onların fonunda sinoptiklərin daha da dəqiq olmalarını göstərmək üçün.

Mühasib ezamiyyətdən gələn işçinin hesablarını yoxlayır:
- Bu nə astronomik məbləğdir?
- Mehmanxananındır.
- Sizə mehmanxanı almağa kim icazə verib?

Əgər cümə günü gəzintiyə çıxarkən xarici pasportu özünlə götürüb götürməmək barədə düşünürsənsə - deməli həyatı hədər yaşamamısan.

- Axır ki, maliyyə tarazlığını əldə etdim
- Necə?
- Anladım ki, pulum yoxdur, olmayıb və olmayacaq.

Mühasibatın qanunu:
Balansa çıxmadınsa deməli səhvin var
Çıxdınsa – iki səhvin var

Maliyyə böhranı məni ayağa qaldırdı. Kredit borcunu ödəmədiyimə görə bank avtomobilimi əlimdən aldı.

